# Oruc tutan şəxsə məkruh olan işlər - 19 /Mar/ 2024

**Məsələ 878. Oruc tutan şəxsə aşağıdakı işlər məkruhdur:**

**1- Halsızlığa səbəb olan hər bir iş (məsələn, qan vermək, hamama getmək və s.);**

**2- Ətirli bitkiləri qoxulamaq (ətir vurmaq məkruh deyildir);**

**3- Əynində olan paltarı islatmaq;**

**4- Rütubətli misvak çubuğu ilə dişləri təmizləmək;**

**5- Diş çəkdirmək, ümumiyyətlə, ağızdan qan gəlməsinə səbəb olan bir işi görmək;**

**6- Yeməyi dadmaq və bu kimi işləri görmək;**

**7- Boğaza çatmamaq şərtilə, buruna dərman tökmək;**

**8- Qoxusu və ya dadı boğaza çatdığı təqdirdə, gözə dərman tökmək və sürmə çəkmək;**

**9- Qadının suda əyləşməsi;**

**10- Həyat yoldaşına toxunmaq və şəhvətin oyanmasına səbəb olan hər hansı bir işi görmək;**

**11- Ağıza su alıb, ağızı yaxalamaq.**